# *ULTRA TECHNOLOGIES ŞİRKƏTİNİN Rüşvətxorluq və Korrupsiyaya qarşı Mübarizə haqqında Siyasəti*

Verilmə tarixi: 02.05.2016
Düzəliş: 001

Təsdiq olunub:

Abdul Qurbanov, Baş direktor

# 1. GİRİŞ

ULTRA TECHNOLOGIES Şirkəti bizim öz biznesimizi necə həyata keçirməyimiz barədə yoxlama aparır. ULTRA TECHNOLOGIES Şirkəti istənilən formada rüşvətxorluq və ya korrupsiyaya tolerantlıq göstərmir. Etik biznes həyata keçirmək barədə arzumuza əlavə olaraq, ULTRA TECHNOLOGIES Şirkəti rüşvətxorluq və korrupsiyanı qadağan edən və bizdən ULTRA TECHNOLOGIES Şirkəti və öz biznes tərəfdaşlarımız arasında rüşvətxorluğun qarşısının alınması üçün müəyyən addımlar atmamızı bizdən tələb edən qanunlara uyğun olaraq fəaliyyət göstərir. Bu qanunların pozulmasının nəticələri ciddi ola bilər, o cümlədən ULTRA TECHNOLOGIES Şirkəti üçün qeyri məhdud cərimələr tətbiq oluna bilər və cəlb edilmiş fiziki şəxslər və onların mebnecerləri azadlıqdan məhrum edilə bilər. Bundan başqa, müvafiq qanunlara əməl oluna bilməməsi ULTRA TECHNOLOGIES Şirkətinin nüfuzu və brendinə aradan qaldırıla biilməyən ziyan vura bilər. ULTRA TECHNOLOGIES Şirkəti bizim fəaliyyət göstərdiyimiz yerdə qanunların həm mətni və həm də məqsədi baxımından əməl etməyə səy göstərir. Belə ki, biz bu rüşvətxorluq və Korrupsiyaya qarşı mübarizə Siyasətini həyata keçirmişik (Siyasət). Bax həmçinin bütün biznes aspektlərində ən yüksək etik standartlara uyğun olaraq bizim öhdəliyimizi müəyyən edən Davranış Qaydaları.

# 2. ƏHATƏ DAİRƏSİ

**BU Siyasət aşağıdakılara tətbiq olunur:**

**1.** ULTRA TECHNOLOGIES Şirkətinin işçisi olmasına baxmayaraq ULTRA TECHNOLOGIES Şirkəti tərəfindən işlərinə nəzarət olunan bütün direktorlar, vəzifəli şəxslər, işçilər və digər şəxslər (ULTRA TECHNOLOGIES Şirkətinin işçi heyəti); və

**2.** ULTRA TECHNOLOGIES Şirkətinin bütün əməliyyatları, o cümlədən bütün hüquqi şəxsləri və biznes ərazi vahidləri və ULTRA TECHNOLOGIES Şirkəti tərəfindən siyasətləri və prosedurları idarə olunan birgə müəssisələr. ULTRA TECHNOLOGIES Şirkəti tərəfindən nəzarət oluna bilməyən birgə müəssisələr üçün, ULTRA TECHNOLOGIES Şirkəti birgə müəssisənin siyasətləri və təcrübələrinə təsir göstərəməyə cəhd edəcəkdir ki, onlar bu siyasətdə təsvir olunan dəyərləri əks etdirə bilsinlər; və

**3.** Məsləhətçilər, podratçılar, təchizatçılar, agentlər və ya vasitəçilər daxil olmaqla hər hansı yolla ULTRA TECHNOLOGIES Şirkəti adından fəaliyyət göstərən istənilən digər şəxs və ya mütəxəssis.

## 3. SİYASƏT

ULTRA TECHNOLOGIES Şirkəti bizim adımızdan fəaliyyət göstərən ULTRA TECHNOLOGIES Şirkətinin işçi heyəti və ya istənilən üçüncü tərəfin hər hansı formada rüşvətxorluq və ya korrupsiya ilə məşğul olmasını qəbul etmir və ya icazə vermir. Əlavə olaraq, biz ULTRA TECHNOLOGIES Şirkətinin standartlarına cavab verməsi üçün  öz digər biznes tərəfdaşlarımızın siyasətləri və fəaliyyətlərinə təsir göstərməyə çalışacağıq. ULTRA TECHNOLOGIES Şirkəti uyğunluq üzrə bizim öhdəliyimizi paylaşan və həmin öhdəliyi əks etdirən siyasətlər və prosedurlara malik olan biznes tərəfdaşları ilə biznes gəyata keçirmək niyyətindədir. Bu siyasət özəl və ya ticari rüşvətxorluq və o cümlədən dövlət rəsmilərinə verilmiş rüşvətlərə tətbiq olunur. Dövlət rəsmisi istənilən hökumət bürosu, departament və ya istənilən səviyyədə agentlik, ictimai beynəlxalq təşkilat, siyasi partiya, və ya tamamilə və ya qismən hökumət tərəfindən nəzarət olunan və ya ona məxsus olan istənilən şirkətin adından fəaliyyət göstərən işçi, vəzifəi şəxs və ya fiziki şəxsdir. Dövlət rəsmilərinə həmçinin siyasi kabinələrin namizədləri də daxil edilə bilər.

ULTRA TECHNOLOGIES Şirkəti Avropa və Birləşmiş Ştatlarda təchizatçılar və biznes tərəfdaşlarına malik olduğu üçün beynəlxalq standartlar və qanunlara riayət etməlidir və beynəlxalq maliyyə təşkilatları tərəfindən maliyyələşdirilən milli layihələrdə iştirak edir. ULTRA TECHNOLOGIES Şirkətinin bizim biznes əməliyyatlarımıza təsir göstərən qanunlar və tənzimləyici tələblərə əməl etməsi zəruri hesabn edilir.

Geniş şəkildə qəbul olunmuşdur ki, müəssisələrdə korrupsiyaya qarşı mübarizə sistemlərinin qurulması üzrə ən yaxşı qlobal təcrübə 2 qanunda dəstəklənir:

1) dövlət rəsmilərinin korrupsiya hərəkətlərini qadağan edən ABŞ Xarici Korrupsiya Təcrübələri Aktı.
2) həm dövlət rəsmiləri və həm də fiziki şəxslərin korrupsiya hərəlәtlərini qadağan edən və tərkibinə hökumət orqanlarında istənilən razılaşdırılmış ödənişlər daxil olan 2010-cu il tarixli Birləşmiş Krallığın Rüşvətxorluq Aktı.

ULTRA TECHNOLOGIES Şirkətinin korrupsiya və rüşvətxorluğun qarşısının alınması ilə əlaqədar korporativ siyasətləri yuxarıda sadalananlar, o cümlədən Azərbaycan Respublikasının korrupsiyaya qarşı mübrizə haqqında cari qanunları daxil olmaqla qüvvədə olan korrupsiyaya qarşı mübarizə haqqında qanunlara əməl olunmasıdır. BU siyasətlərdə qeyri müvafiq üstünlük əldə etmək məqsədi güdən bütün formada korrupsiya, rüşvətxorluq və fəaliyyətlər qadağan olunur.

Şirkətin siyasətinə uyğun olaraq, ULTRA TECHNOLOGIES Şirkətini təmsil edən və onun adından fəaliyyət göstərən bütün işçilər və tərəfdaşlardan bu qanunlar və siyasətlərə əməl olunması gözlənilir. ULTRA TECHNOLOGIES Şirkəti öz bölmələrini potensial korrupsiya təcrübələri və əlaqəli risklər üzrə yoxlayacaq və nəzarət edəcəkdir və o cümlədən mühasibat qeydlərinin saxlanılmasını təmin edəcəkdir.

## 4. BU SİYASƏTDƏ NƏ ƏHATƏ OLUNUR?

Rüşvət qəbul edən şəxsin sizin və ya digərinin xeyrinə fəaliyyyət göstərməsinə təsir göstərmək niyyəti ilə verilmiş və ya təklif olunan dəyərli bir şeydir. Rüşvətlər pul ödənişləri – hədiyyə, bəxşiş, həddən artıq məbləğdə komisyon və ya digər ödəniş – lakin təxminən hər bir şey rüşvət ola bilər. Bəzi nümunələr hədiyyə, həddən artıq məbləğdə səyahət və əyləncə, işə düzəltmə təklifləri və ya istənilən formada imtiyazlı rəftardır. Hədiyyə, əyləncə və üçüncü tərəfin səyahətinin təmin edilməsi barədə təfsilatlı bələdçilik üçün, zəhmət olmasa, UT Hədiyyə və Əyləncə Siyasəti və **UT Biznes Etikası Qaydaları ilə məsləhətləşin.** ULTRA TECHNOLOGIES Şirkətinin işçi heyəti və ULTRA TECHNOLOGIES Şirkətinin adından fəaliyyət göstərənlər aşağıdakıları etməməlidir:

• Vicdanlı xidmətlər və ya mallar olmayan ödənişləri təklif etmək və ya ödəmək;
• Dövlət rəsmisinə şəxsən və ya onun ailə üzvünə, dostu və ya iş yoldaşına dəyərli bir şey təklif edərək və ya verərək onu nə isə bir iş görməyə təhrik etmək və ya təhrik etməyə cəhd etmək;
• Bir şəxsə və ya onun ailə üzvünə, dostu və ya iş yoldaşına dəyərli bir şey təklif edərək və ya verərək həmin şəxsin biznes qərarlarına təsir göstərmək və ya təsir göstərməyə cəhd etmək;
• Biznes tərəfdaşına imtiyazlı rəftar göstərmək qarşılığında öz şəxsi faydası və ya ailə üzvü, dostu və ya iş yoldaşının faydası üçün nəsə dəyərli bir şey qəbul etmək və ya tələb etmək;
• ULTRA TECHNOLOGIES Şirkətinin əməliyyatlarını müvafiq şəkildə əks etdirməyən və ya qüvvədə olan hüquqi tələblərə və ULTRA TECHNOLOGIES şirkətinin daxili nəzarət sisteminə uyğun gəlməyən ödəniş və ya digər ödənişlərin ULTRA TECHNOLOGIES şirkətinin qeyd kitabında qeydə alınması;
• Qüvvədə olan qanun və ya əsasnamədə icazə verilmədiyi halda, "balansda kənar" vəsaitləri və ya aktivləri saxlamaq;
• Xüsusi qaydada icazə verilməyən ödənişləri təklif etmək və ya həyata keçirmək;
• İstənilən qeyri qanuni ödənişləri təklif etmək və ya həyata keçirmək
• Tələb olunan halda təsiqi əldə edərək qüvvədə olan yerli hədiyyə və əyləncə siyasətinə uyğun olaraq hədiyyələr və ya əyləncə xidmətlərini dəqiq və təfsilatı ilə qeydə ala bilməmək;
• Özünüzdən başqa istənilən şəxs tərəfindən yuxarıda göstərilən tədbirlərdə iştirak etmək, ruhlandırmaq və ya imkan yaratmaq; və ya
• Yuxarıdakı tədbirlərin baş verməsi şübhəsi barədə hesabat verə bilməmək (korrupsiya ilə əlaqədar narahatlıqlar barədə hesabat vermək üçün bizim **Xəbər vermə Siyasətimizə baxın**). ULTRA TECHNOLOGIES şirkətinin adından fəaliyyət göstərən şəxslər korrupsiya riskinin əsas mənbələridir. ULTRA TECHNOLOGIES Şirkəti onun adından fəaliyyət göstərməsi üçün başqalarının təyin edilməsi üzrə standartlara malikdir və siz həmin zaman qüvvədə olan prosedurlara əməl etməlisiniz.

## 5. NÜMUNƏLƏR VƏ QIRMIZI BAYRAQLAR

Sizin bunun üçün nəzərdən keçirməli olduğunuz qırmızı bayraq nümunlərinin bəzisi qeyri müvafiq davranış riskinə işarə edir. Bu qırmızı bayraqlarının pozuntuları təşkil edə bilməməsinə baxmayaraq, onlar ciddi qəbul olunmalı və araşdırılmalı olan xəbərdarlıq işarələridir.

• Bizim cəlb etmək istədiyimiz podratçı işlərin başladılması üçün ilkin böyük qonorar və ya uğur bonusu istəmişdir.
• Yeni müştəri bazar qiymətlərindən yuxarı komisyon alan xüsusi agentdən istifadə etməyimizi xahiş etmişdir.
• Yerli məsləhətçi bu yaxınlarda təqdim olunan xidmətlər üçün yardımçı sənədlər və ya təsvir olmadan təmin edilmiş xidmətlər üçün qeyri adi yüksək məbləğdə qaimə təqdim etmişdir.
• Dövlət rəsmisi göstərmişdir ki, yerli xeyriyyə fonduna və ya onun siyasi partiyasına külli miqdarda yardımlar qarşıdan gələn lisenziya / icazənin yenilənməsində "əlverişli" hesab olunacaqdır.
• Dövlət rəsmisi vizanın verilməsi, gömrük rəsmiləşdirməsinin verilməsi və ya telefon xəttinə qoşulma kimi əsas inzibati tapşırıqları sürətləndirmək üçün ona kiçik məbləğdə ödəniş edilməsini istəmişdir. ULTRA TECHNOLOGIES Şirkəti "sürətləndirici" və ya "sürətli" ödənişlər həyata keçirmir (bəzən "stimullaşdırıcı" ödənişıər adlanır).
• Təchizatçı bizdən onun adına qeydiyyatdan keçməmiş bank hesabına ödəniş etməyimizi xahiş etmişdir.
• Məsləhətçi, podratçı və ya digər vasitəçilər fəaliyyət göstərən və ya təqaüdə çıxmış dövlət rəsmisidir və ya dövlət rəsmisi ilə əlaqəlidir və ya bu vasitəçi tam və ya qismən dövlət rəsmisinə və ya dövlət rəsmisinin qohumuna məxsusdur.
• Məsləhətçi, podratçı və ya digər vasitəçilər biznes üçün yenidirlər və ya tandart xidmətləri həyata keçirmək üçün obyektləri və ya işçi heyəti yoxdur və ya yalnız "təsir göstərə" bilər.
• Məsləhətçi, podratçı və ya digər vasitəçilər tərəfindən faktiki və ya şübhəli bilinən qeyri müvafiq davranış barədə mediada ictimai açıqlamalar verilmişdir.
• Məsləhətçi, podratçı və ya digər vasitəçilər tərəfindən davranışın şübhəli olması və ya yaxşı biznes təcrübələrinə uyğun olmaması.
• Korrupsiyaya qarşı mübarizə haqqında qanunlar və standartlara əməl olunması üçün məsləhətçi, podratçı və ya digər vasitəçilər tərəfindən imtina.
• Normal biznes və ya tender proseslərinə imkan yaratmaq qabiliyyəti olan məsləhətçi, podratçı və ya digər vasitəçilər tərəfindən vədlər.
• Yalnız nağd şəkildə həyata keçiriləcək komisyon və ya digər ödənişlər üzrə sorğular.

## 6. ƏMƏL ETMƏMƏ

Biz siyasətə əməl olunmamasını işdən azad etmə daxil olmaqla intizam tədbirinə səbəb olacaq ciddi məsələ kimi baxacağıq, əgər qanunda icazə verilərsə. Əgər siz ULTRA TECHNOLOGIES şirkətinin işçi heyətinin hər hansı formada rüşvətxorluq və ya korrupsiya ilə məşğul olduğunu və ya məşğul olmağı planlaşdırdığına və ya bu siyasəti pozduğuna inanmağınıza səbəb olan məlumatdan xəbərdar olsanı, siz dərhal komanda rəhbəri / Biznesdə etik prinsiplərə əməl olunması üzrə Qrupa və ya Baş Menecerə məlumat verməlisiniz və ya ULTRA TECHNOLOGIES şirkətinin Xəbərdarlıq Siyasəti ilə məsləhətləşməlisiniz. Xəbər vermə Siyasətində öz problemləriniz barədə konfidensial və anonim şəkildə necə hesabat verməli olduğunuz izah olunur və ULTRA TECHNOLOGIES Şirkəti vicdanlı şəkildə xəbərdarlıq edənləri qisasdan qoruyacaqdır.

## 7. ƏLAVƏ MƏLUMAT ÜÇÜN

Əgər sizin bu Siyasət barədə hər hansı sualınız olarsa, zəhmət olmasa, Biznesdə Etik Prinsiplərə əməl Olunması üzrə Qrupun vəzifəli şəxsi ilə əlaqə saxlayın. Bu siyasətə vaxtaşırı olaraq düzəliş edilə və yenilənə bilər. Bu Siyasətin ən son versiyasını www.ultraintegrity.com saytı vasitəsilə əldə etmək olar. Bu Siyasətə düzəlişlər yalnız ULTRA TECHNOLOGIES Şirkətinin Baş Direktoru tərəfindən edilə bilər.